| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | **PSYC 304 Təhsil psixologiyasının əsasları**<br>**3 kredit (6 ECTS credits)** |
| | **Departament** | Psixologiya Departamenti |
| | **Proqram (bakalavr, magistr)** | **Bakalavr** |
| | **Tədris semestri** | **payız**, 2023 |
| | **Fənni tədris edən müəllim** | Aytac Sahil Səlimova (MSc) |
| | **E-mail:** | aselimova@khazar.org |
| | **Mühazirə otağı/Cədvəl** | **IV gün** *14:10, 15:50*<br>*Otaq :* |
| | **Konsultasiya vaxtı** | əvvəlcədən razılaşdırılmış gün və saatda |
| **Prerekvizitlər** | yoxdur | |
| **Tədris dili** | Azərbaycan dili | |
| **Fənnin növü** | Məcburi | |
| | ***Təhsilin əsas məqsədi, uşaqları öz bacarıqlarının fərqinə vardırmaqdır.***<br>*Erich Fromm*<br>***Təhsil yaddaşı doldurmaq yox, beyni inkişaf etdirmək deməkdir.***<br>*Mark Twain* | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas ədəbiyyat**<br>1. Educational Psychology (12th edition): Anita Woolfolk<br>2. Educational Psychology (3rd edition): Elliott<br>3. Etkili Öğretmenlik Eğitimi –Dr. Thomas Gordan<br>4. Eğitim Psikolojisi – İbrahim Yıldırım ( Ankara 2011)<br>5. Eğitim psikolojisi Gelişim-Öğrenme-Öğretim Binnur Yeşilyaprak 13. Baskı<br>6. Robert E. Slavin “Educational Psychology Theories and Practices” Sixth edition, John Hopkins University<br><br>**Əlavə Oxu Siyahısı**<br>1. Conatan Livinqston adlı qağayı- Rirchard Bach<br>2. Mahremiyyet eğitimi- Adem Güneş<br>3. Öğretmenim bu kitabı okur musun- Hasan Yılmaz<br>4. Beni ödüllerle cezalandırma- Özgür Bolat<br>5. Necə danışmalı ki, uşaqlar dinləsinlər və necə dinləməli ki, uşaqlar danışsınlar | |
| **Kursun vebsaytı** | Kursla bağlı olan bütün vəsaitlər, materiallar, syllabus, əlavə oxu materialları, kursla bağlı məlumatlar Teamsə yerləşdirilib. | |
| **Tədris metodları** | Mühazirə | X |
| | Qrup müzakirəsi | X |
| | Praktiki tapşırıqlar | X |
| | Testlər | X |
| | Xülasə yazmaq, təhlil | X |

| **Qiymətləndirmə** | *Komponentləri* | *Tarix/son müddət* | *Faiz (%)* |
|---|---|---|---|
| | a) film analizi | ayda 2 dəfə (kitab təhlili olmayan günlər) | **5** |

| | | | |
|---|---|---|---|
| | b) quiz | imtahanlardan öncəki həftə (2 dəfə) | ***10*** |
| | c) araşdırma mövzusu | 20.05.2023 | ***10*** |
| | d) əlavə kitabların təhlili | ayda max-2, min-1 dəfə olmaqla | ***15*** |
| | e) aralıq imtahanı | Noyabr 2023 | ***30*** |
| | f) final imtahanı | yanvar 2024 | ***30*** |
| | Yekun | *sims*-ə yerləşdirmə 25.12.2023 | ***100*** |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | • ***Davamiyyət-*** qiymətləndirmə xanasında da belə bir komponentin olmadığına diqqət yetirə bilərsiniz. Artıq müstəqil, azad iradəli şəxsiyyət olan universitet tələbəsi üçün dərslərdə iştirakın önəmini vurğulmağa ehtiyac yoxdur. Buna görə də sizlərdən iştirak etmədiyiniz dərslər üçün bal çıxılmayacaq. Lakin semestr ərzində maksimum 8 qaib alan tələbələr dekanlıq tərəfindən imtahanlara buraxılmayacaq. Eyni zamanda dərslərdə iştirak etməyən tələbələr həmin gün üçün nəzərdə tutulmuş fəaliyyətlər, tapşırıqlar və nəticədə qiymətləndirmələrdən məhrum olurlar. Bunun əvəzedicisi kimi əlavə tapşırıq istənilə bilməz (istisna hal- sağlamlıqla bağlı məqamlarda arayışla dekanlığa yaxınlaşmaq mümkündür).<br>• ***Quiz-*** aralıq və final imtahanından 1-2 həftə öncə, keçirilmiş mövzulardan ibarət test və ya case analiz şəklində olacaq suallardan ibarətdir.<br>• ***Araşdırma mövzusu–*** Keçdiyimiz mövzularda toxunduğumuz məsələlərlə (anlayışlar, problemlər, mövzulardakı alt başlıqlar) bağlı 3 səhifədən ibarət (şrift-12) araşdırmalarınıza əsaslanmış orijinal yazı. Təqdim ediləcək işin qiymətləndirmə meyarları:<br>- Orijinallıq əsas götürülür<br>- Semestr ərzində keçirilmiş mövzulardan kənara çıxılmamalıdır<br>- Mövzu seçimi tələbəyə aiddir lakin müəllimdən tövsiyə almaq olar<br>- Mövzu seçilərkən geniş yox dar əhatəli seçilməlidir (məs, mövzu adı- "Depressiya" ola bilməz, ola bilər- "12-14 yaşlı şagirdlərdə depressiyanın səbəbi kimi uğursuzluq hissi"). Yəni mövzunun adını seçərkən dəqiq və detalçı olmağa diqqət edilməlidir.<br>- Mövzular təhsil prosesi, müəllim münasibət və davranışları, sinif mühiti və ya şagirdin psixoloji hal və çətinlikləri ilə əlaqələndirilmiş olmalıdır. (yəni olmamalıdır- "6-10 yaşın xüsusiyyətləri", ola bilər "6-10 yaşlı uşaqların öyrənmə prosesindəki çətinlikləriylə özgüvən arasındakı əlaqə" )<br>- Ədəbiyyat siyahısı mütləq qeyd edilməli, ən az 3-4 mənbədən istifadə edilməlidir.<br>- Mənbələr etibarlı olmalıdır. Yəni vikipediya və ya hansısa psixoloqun müsahibəsi mənbə hesab edilmir. Akademik yazılar/məqalələr istifadə edilməlidir.<br>- Sonluqda tələbə bu araşdırmalarının nəticəsi kimi münasibət və qənaətlərini öz cümlələri ilə əlavə etməlidir.<br>• ***Əlavə oxu-*** mövzusu öyrənmə, təhsil, müəllim-şagird münasibətləri, sinifin idarə olunması ilə bağlı olan 4-5 kitabdan söhbət gedir. Tələbələr onlara verilmiş vaxt içərisində bu kitabları oxuyur, təhlil edir və qısa | | |

| | |
|---|---|
| | şəkildə yazılı analizlərini hazırlayırlar. Eyni zamanda növbəti dərsdə qrupla birlikdə müzakirə edilir. Qiymətləndirmə meyarları<br>- Hər kitab öz təyin olunduğu vaxtda qəbul edilir (bir neçə ay sonra və ya semestr sonunda yox)<br>- Ölçünün 1-2 səh. olması kifayət edir<br>- Yazarkən kitabdakı əsas ideyalardan, önəmli fikirlərdən statlar gətirmək və öz münasibətini bildirmək lazımdır (kitabın sadəcə sujet xəttini ard-arda yazmaq kifayət etmir)<br>- Müəllim sizin hazırladığınız təhlili qiymətləndirərkən – ***kitabı sonadək oxumağınızı, anlamağınızı və öz şəxsi münasibətinizi qeyd etməyinizi*** əsas tutur.<br>• ***Film analizi -*** öyrənmə prosesi və psixoloji məqamlarla zəngin bir neçə filmə baxıldıqdan sonra, analiz olunub - yazılı şəkildə göstərilən tarixdə təqdim edilməlidir. Eyni zamanda növbəti dərsdə qrupla birlikdə müzakirə edilir. Təhlili yazarkən ssenari/filmin gedişatını qeyd tutmaq yox, sizdən mahiyyət, təhsillə, psixologiya ilə bağlı məqamların qeydi və öz münasibətinizi bildirməyiniz istənilir. Həcmi min- 5-6 cümləlik, max- 10 cümləlik dolğun fikirdir.<br>• ***İmtahan-*** suallar yalnız keçirilmiş mövzulardan salınır. Suallar- açıq, boşluqları doldurma, yanlış sözü tapmaq, doğru təhlili tapmaq və test şəklində hazırlanır. Testlərə daha çox yer ayrılır.<br>Tələbələrdən bir-birlərinə, söylənilən fikirlərə, yanaşmalara hörmət etmələri, dəyər vermələri, yüksək əxlaqi davranışlar sərgiləmələri gözlənilir. Verilən ev tapşırıqlarına diqqətlə yanaşmaq, dərs zamanı qeydlər götürmək, tapşırıqları göstərilən tarixlərdə təhvil vermək, aydın olmayan, **çətinlik yaradan məqamları vaxtında aydınlaşdırmaq**, yardımlaşmaq önəmlidir. |
| **Kursun təsviri** | Təhsil psixologiyası insan inkişafını və öyrənməsini ətraflı şəkildə öyrənməklə, alınmış nəticələri təhsil-öyrənmə prosesinə tətbiq edərək bu prosesi məhsuldar hala gətirməyi məqsəd güdən tətbiqi elm sahəsidir. İnsan inkişafı və öyrənməsi insanın doğumundan başlayaraq (inkişaf psixologiyasında bu- doğum öncəsini də əhatə edir) ölümə qədər davam edən prosesdir və hər mərhələyə xas müəyyən xüsusiyyətlər və öyrənmə imkanları ilə özünü göstərir. Bu mərhələlərin bəziləri kritik əhəmiyyətə malikdir və xüsusilə diqqət edilməlidir.<br>Öyrənmə-öyrətmə prosesinin uğurla həyata keçməsində öyrədən amili çox önəmlidir. Bu baxımdan təhsil psixologiyası gələcək müəllimlərin peşə hazırlığında vacibliyi ilə seçilir.<br>Müəllimlik bir xalqın və ölkənin gələcəyini hazırlamaq məsuliyyəti daşıyan önəmli bir peşədir. Təhsil sisteminin yaxşı bir riyaziyyatçıdan daha çox riyaziyyat müəlliminə, yaxşı bir bioloqdan daha çox biologiya müəlliminə ehtiyacı var. Bir müəllim öz sahəsini nə qədər mükəmməl bilirsə-bilsin, təhsil psixologiyası fənnini öyrənməyən, uşaq və yeniyetmə psixologiyasından anlamayan, fərdi fərqlilikləri nəzərə almayan, güclü və zəif xüsusiyyətləri ilə şagirdlərini yetərincə tanımayan, şagirdlərlə düzgün |

| | |
|---|---|
| | ünsiyyət bacarığı qazanmamış müəllimdən yaxşı öyrədən olması gözlənilməməlidir.<br>Bu fənnin tədrisi nəticəsində tələbələrdə/gələcək müəllimlərdə şagirdlərlə doğru ünsiyyət, öyrənmə və öyrətmə prosesi, öyrətmənin şagirdin ümumi psixoloji durumunu nəzərə alaraq həyata keçirilməsi, sinifin idarə olunması kimi önəmli biliklər aşılanır.<br>Təhsil psixologiyasının cavablandırmağa çalışdığı bəzi suallar var :<br>• məhsuldar öyrənmə yolları hansılardır?<br>• inkişaf xüsusiyyətləri öyrənmə prosesində nə qədər rol oynayır<br>• şagirdlər necə motivasiya edilir?<br>• bəzi şagirdlər öyrənmə prosesində digərləri ilə müqayisədə niyə daha yaxşıdırlar?<br>• “yaxşı” müəllim nə etməlidir? Və.s |
| **Kursun məqsədləri** | Fənnin tədrisi nəticəsində tələbə aşağıdakı məsələlər haqqında lazımi biliyə malik olmalıdır:<br>• təhsil psixologiyası ilə bağlı anlayışları ayırd edə bilməli<br>• təhsil psixologiyasının təhsil-öyrətməyə qazandırdığı xidmətləri anlaya bilməli<br>• təhsil psixologiyasında istifadə olunan üsulları izah etməli<br>• təhsil psixologiyasının təhsil və müəllim baxımından önəmini dəyərləndirə bilməli<br>• fərdin inkişafı ilə baglı əsas anlayışları bilməli<br>• inkişaf mərhələlərini xüsusiyyətləri ilə birgə qavramalı<br>• inkişafa təsir edən amilləri bilməli<br>• inkişaf mərhələləri ilə öyrənmə arasında əlaqə qura bilməli<br>• doğumla başlayan inkişaf prosesində irsiyyət-mühit qarşılıqlı təsirini bilməli<br>• fiziki inkişafın insan həyatına, eləcə də sosial münasibətlərə və nəticədə öyrənməyə təsirini bilməli<br>• koqnitiv inkişafı öyrənməli və koqnitiv yanaşmalardan əldə olunan bilikləri müəllimlik peşəsinə tətbiq edə bilməli<br>• uşaqlarda cinsi inkişafı öyrənməli və cinsi tərbiyənin önəmini bilməli<br>• uşaq və yeniyetmələrdə normal cinsi davranışla, problemli davranışı ayırd edə bilməli<br>• əxlaqın nə olduğunu, fərd və cəmiyyət baxımından önəmini qavramalı<br>• şəxsiyyətin inkişaf mərhələlərini bilməli və biliklərini işində tətbiq etməyi öyrənməli<br>• şəxsiyyətin inkişafında məktəbin, müəllimin və dostlarının təsirini müəyyənləşdirə bilməli<br>• öyrənmə və öyrətmə prosesini dərindən bilməli<br>• müxtəlif öyrənmə növləri haqqında bilməli və bu öyrənmə imkanlarını zaman-zaman dərslərində tətbiq etməli |

| | |
|---|---|
| | • çoxsaylı zəka nəzəriyyəsinə əsasən dərs planı hazırlaya bilməli<br>• şagirdi tanımanın önəmini anlamalı<br>• öyrənmə mühiti formalaşdıra bilməli<br>• motivasiyanın dərsdə önəmini anlamalı və motivasiya texnikalarından istifadə etməli<br>• sinifin idarəolunması haqqında biliklərə yiyələnməli<br>• problemli situasiyalarda düzgün reaksiyanı seçməyi bacarmalı |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Kursun sonunda tələbələr aşağıdakıları edə biləcəklər:<br><br>**MODUL I**<br>**İnkişaf Psixologiyası:**<br>• İnkişaf Psixologiyasının qanunlarlnı bilir, izah edir<br>• Yaş mərhələlərinin xüsusiyyətlərini bilir, izah edir və yaş xüsusiyyətlərinə görə onlarla necə münasibət qurmağın sağlam yollarını təxmin edə bilir<br>• Davranışların növlərini bilir, müqayisə edir, nümunə çəkir<br>• İdrak nəzəriyyəsini bilir, zehni inkişafı yaş mərhələlərinə görə sıralayır<br>• Gardnerin zəka növlərini bilir və ona əsaslanmış dərs proqramı hazırlayır<br><br>**MODUL II**<br>**Öyrənmə Psixologiyası:**<br>• Öyrənmə nəzəriyyələrini bilir<br>• Öyrənmə prosesini izah edir<br>• Davranışları formalaşdırma və yoxetmə texnikaların;n bəzilərindən istifadə edir<br>• Öyrənməyə təsir edən amilləri bilir və nümünələr çəkir<br>• Möhkəmləndirmə yollarını və prinsiplərini bilir və müxtəlif vəziyyətlərə görə tətbiq edə bilir<br>• Müxtəlif öyrənmə növlərini təhsilə tətbiq edir |

| | | | |
|---|---|---|---|
| | | **CƏDVƏL** | |
| | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik** |
| **1** | **21.09.2023** | ***Təhsil psixologiyasının əhatə dairəsi***<br>✓ Psixologiyaya giriş<br>✓ Təhsil psixologiyasının məqsəd və vəzifələri<br>✓ Təhsil psixologiyasında istifadə olunan tədqiqat üsulları (təsviri, tətbiqi və statistik) | • Rod Plotnik – İntroduction to psychology<br>• Atkinson, R. L., Atkinson, R. C.- İntroduction to psychology<br>• Educational Psychology (3rd edition): Elliott |
| **2** | **28.09.2023** | ***İnkişaf psixologiyasına giriş***<br>✓ əsas anlayışlar<br>✓ əsas inkişaf prinsipləri<br>✓ inkişafa təsir edən bioloji və | • Santrock, J. W. (1997). Life-Span Development. Sixth Edition. The McGrawHill Companies, Inc. , USA.<br>• Robert E. Slavin "Educational |

| | | | |
|---|---|---|---|
| | | mühit amilləri<br>✓ inkişaf mərhələləri və vəzifələri | Psychology Theories and Practices" Sixth edition, John Hopkins University |
| **3** | **05.10.2023** | ***Koqnitiv və nitq inkişafı***<br>✓ J. Piyajenin koqnitiv inkişaf nəzəriyyəsi (zəka, tarazlıq, adoptasiya, koqnitiv quruluşlar, koqnitiv inkişaf mərhələləri)<br>✓ L. Vygotsky və koqnitiv inkişaf<br>✓ Nitq inkişafı (dilin qazanılması, inkişaf mərhələləri, məktəb dövründə nitq inkişafı, nitq inkişafına təsir edən amillər) | • The Origins of Intellect: Piaget's Theory, W. H. Freeman and Company, (1984).<br>• Woolfolk, A. (2015). Educational Psychology. |
| **4** | **12.10.2023** | ***Şəxsiyyətin inkişafı***<br>✓ Z. Froyd və psixoanalitik nəzəriyyəsi<br>✓ Z. Froydun topoqrafik nəzəriyyəsi<br>✓ Z. Froydun psixoseksual inkişaf mərhələləri<br>✓ E. Ericson və psixososial inkişaf mərhələləri<br>✓ Uşaqların şəxsiyyətinin inkişafının dəstəklənməsi üçün bəzi tövsiyələr | • Jerry M. Burger – Personality<br>• Erikson, E. H. (1984). İnsanın SekizÇağı(Çev:V.Şar,B,Üstün. Ankara: Birey ve Toplum Yayınları<br>• Educational Psychology (3rd edition): Elliott |
| **5** | **19.10.2023** | ***Əxlaqi İnkişaf***<br>✓ J. Piyajenin əxlaqi inkişaf nəzəriyyəsi<br>✓ L. Kohlbergin əxlaqi inkişaf nəzəriyyəsi<br>✓ J. Piyajenin və L. Kohlbergin əxlaqi inkişaf nəzəriyyəsinə tənqidlər<br>✓ Əxlaqi inkişaf və təhsil | • Dewey, J. (1960). Theory of the Moral Life. New York: Holt, Rinehart and Winston, Inc<br>• Eğitim psikolojisi Gelişim-Öğrenme-Öğretim Binnur Yeşilyaprak 13. Baskı<br>• Schaffer, H.R. (1997). Social Development. Massachusetts: Blackwell Publishers |
| **6** | **26.10.2023** | ***Öyrənmə psixologiyası və öyrənməyə təsir edən amillər***<br>✓ öyrənmə<br>✓ əsas anlayışlar<br>✓ davranış-performans arasındakı əlaqə<br>✓ öyrənmə-performans arasındakı əlaqə<br>✓ öyrənilmiş və öyrənilməmiş davranışlar<br>✓ öyrənməyə təsir edən amillər | • Robert E. Slavin "Educational Psychology Theories and Practices" Sixth edition, John Hopkins University<br>• Woolfolk, A. (2015). Educational psychology (9th edt). Boston: Pearson Education, Inc |

| | | | |
|---|---|---|---|
| | | ✓ öyrənmə çətinliyi yaşayan şagirdlər | |
| **7** | **02.11.2023** | ***Biheviorizmdə öyrənmə***<br><br>✓ Davranış və öyrənmə arasındakı əlaqə<br>✓ Klassik şərtlənmə<br>✓ Klassik şərtlənmə ilə qazanılmış davranışları yox etmə texnikaları<br>✓ Klassik şərtlənmənin öyrənmə prosesinə tətbiqi<br>✓ Operant şərtlənmə<br>✓ Operant şərtlənmədə möhkəmləndirmə yolları<br>✓ Mükafatlandırma və cəzalandırma prinsipləri<br>✓ Mükafatlandırma taarifləri (Schedules of Reinforcement)<br>✓ Bitişiklik (contiguity) nəzəriyyəsi<br>✓ Sınama-yanılma öyrənməsi<br>✓ Thorindike-ın təhsilə dair fikirləri | • Eğitim psikolojisi Gelişim-Öğrenme-Öğretim Binnur Yeşilyaprak 13. Baskı<br><br>• Woolfolk, A. (2015). Educational psychology (9th edt). Boston: Pearson Education, In<br>• Behavior modification, Rymond Miltenberger, 2016 |
| **8** | **09.11.2023**<br>**Qeyri-iş**<br>**(əvəz edilsin)** | ***Əvvəlki mövzunun davamı***<br>✓ Mükafatlandırma və cəzalandırma prinsiplərinə dair tapşırıq | • Pervasive Negative Effects of Rewards on Intrinsic Motivation: The Myth Continues, Judy Cameron, Katherine M. Banko, and W; David Pierce Universityof Alberta (2001) |
| **9** | **16.11.2023** | **Aralıq İmtahanı** | Bu təxmini tariixdir |
| **10** | **23.11.2023** | ***Geştalt yanaşmada öyrənmə***<br><br>✓ Qavramada geştalt prinsipləri<br>✓ Yaradıcı düşünmə<br>✓ Qavrama yolu ilə öyrənmə<br>✓ Sahə nəzəriyyəsi<br>✓ Təhsilə tətbiqi | • Özakpınar, Y. (2009).Bilişsel Psikoloji.<br>• Eğitim Psikolojisi – İbrahim Yıldırım ( Ankara 2011) |
| **11** | **30.11.2023** | ***Məlumatların işlənilməsi** (information processing) **nəzəriyyəsi***<br><br>✓ Yaddaş növləri (emosional, qısamüddətli, uzunmüddətli, epizodik, prosedural, semantik)<br>✓ Bu nəzəriyyədə müəllimin rolu<br>✓ Şagird diqqətini artırmağın yolları<br>✓ Xatırlama və unutma prosesi | • Woolfolk, E.A, (2015) Educational Psychology, Boston, Allyn and Bacon<br>• Yıldırım, İ., (2010). Eğitim Psikolojisi.Ankara:Anı Yayıncılık.<br>• Duman, B. (2008). "Eğitim ve Öğretim İle İlgili Temel Kavramlar" Bilal Duman (Ed.) Üstbiliş- Bilişsel Farkındalık |

| | | | |
|---|---|---|---|
| | | ✓ Yaddasaxlama texnikaları | (s.420449). Ankara: Anı Yayıncılık. |
| **12** | **07.12.2023** | Gardnerin çoxsaylı zəka nəzəriyyəsi və bu nəzəriyyəyə əsaslanmış dərs planı hazırlama | • https://acikerisim.dicle.edu.tr/xmlui/bitstream/handle/11468/3079/Orta%C3%B6%C4%9Fretimde%20%C3%A7oklu%20zeka%20kuram%C4%B1%20destekli%20%C4%B0ngilizce%20%C3%B6%C4%9Fretim%20y%C3%B6ntemiyle%20okuma%20becerisinin%20geli%C5%9Ftirmesine%20ili%C5%9Fkin%20bir%20ara%C5%9Ft%C4%B1rma.pdf?sequence=1&isAllowed=y |
| **13** | **14.12.2023** | ***Sosial-koqnitiv öyrənmə nəzəriyyəsi***<br>✓ Öyrənməni təmin edən dolayı təcrübələr<br>✓ Sosial-koqnitiv öyrənmə nəzəriyyəsinin əsaslandığı prinsiplər<br>✓ Sosial-koqnitiv öyrənmə nəzəriyyəsinin təhsil-öyrənmə baxımından qiymətləndirilməsi | • Woolfolk, E.A, (2015) Educational Psychology, Boston, Allyn and Bacon<br>• Aggression: A Social Learning Analysis (The Prentice-Hall Series in Social Learning Theory)- A.Bandura (1973) |
| **14** | **21.12.2023** | ***Humanist yanaşma və öyrənmə***<br>✓ C.Rocers və mənlik anlayışı<br>✓ A. Maslovun tələbatlar piramidası<br>✓ Humanist psixologiyanın təhsilə tətbiqi | • Atkinson, R. L., Atkinson, R.C., Smith, E.E., Bem, D.J., Hoeksema, S.N. (2002). Psikolojiye Giriş. Ankara: Arkadaş Yayınları<br>• Jerry M. Burger – Personality<br>• Woolfolk, A. (2015). Educational Psychology. Pearson Education,Inc. |
| **15** | **28.12.2023** | ***Öyrənmə mühiti formalaşdırmaq. Sinifdaxili qiymətləndirmə***<br>✓ Öyrənmə ehtiyacı<br>✓ Pozitiv öyrənmə mühiti formalaşdırma<br>✓ Hər şagirdi öyrətmək<br>✓ Sinifdaxili qiymətləndirmə | • Woolfolk, A. (2015. Educational Psychology.<br>• Etkili Öğretmenlik Eğitimi –Dr. Thomas Gordan |